UOT 811.512.162'373.46
Səhifə: 56-63
https://doi.org/10.59849/2663-8967.2026.2.56

Xədicə Heydərova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-poçt: khadijahaydarova@anas.az

SEYİD YƏHYA ŞİRVANİ BAKUVİNİN ƏSƏRLƏRİNDƏ TƏSƏVVÜF TERMİNLƏRİNİN LEKSİK-SEMANTİK SİSTEMİ

XÜLASƏ

Məqalədə XV əsr Azərbaycan elmi-fəlsəfi və irfani fikir tarixinin görkəmli nümayəndəsi Seyyid Yəhya Şirvani Bakuvinin əsərlərində işlənmiş təsəvvüf terminləri leksik-semantik sistem şəklində tədqiq edilir. Araşdırmanın əsas məqsədi terminləri qarşılıqlı semantik münasibətlər əsasında formalaşmış konseptual sahələr kimi müəyyənləşdirməkdir. Tədqiqatın materialını, əsasən, "Şəfaül-əsrar", "Əsrarüt-talibin", "Mənazilül-aşiqin", "Kəşfül-qülub", "Ətvarül-qəlb", "Şərhi-məratibi-əsraril-qülub", "Rumuzül-işarət", "Əsrarül-vüzu vəs-səlat", "Şərhi-əsmai-səmaniyyə", "Virdü-Səttar", "Bəyanül-elm" və "Qəzəliyyat" təşkil edir. Təsviri, kontekstual və müqayisəli-semantik metodlardan istifadə edilməklə terminlər mənəvi yol və seyrü-süluk, müridlik və rəhbərlik, nəfsin tərbiyəsi, qəlb və batini aləm, mənəvi idrak, irfani hiss, tövhid və ontoloji anlayışlar, praktik təsəvvüf sahələrində qruplaşdırılmışdır. Müəyyən edilmişdir ki, Bakuvinin terminologiyasında ərəb mənşəli istilahlar əsas konseptual nüvəni təşkil etsə də, fars dilinin izafət modelləri, poetik-metaforik ifadələri və türk mənşəli *yol, könül, bilik, sevgi* kimi sözlər sistemin milli dil mühitində mənimsənilməsini təmin edir. Müxtəlif janrlı əsərlərin müqayisəsi terminlərin didaktik, mərasim, poetik və simvolik funksiyalarının fərqləndiyini göstərir.

Açar sözlər: *Seyyid Yəhya Şirvani Bakuvi, təsəvvüf terminologiyası, leksik-semantik sahə, Şəfaül-əsrar, Xəlvətilik, seyrü-süluk, qəlb.*

Giriş: Seyid Yəhya Şirvani Bakuvi XV əsr Azərbaycan elmi, fəlsəfi və irfani fikir tarixinin görkəmli nümayəndələrindən biridir. Xəlvətilik təriqətinin sistemləşməsində və geniş bir coğrafiyada yayılmasında müstəsna xidmətləri olan mütəfəkkirin yaradıcılığı Azərbaycan təsəvvüf tarixinin öyrənilməsi ilə yanaşı, tarixi leksikologiya, semasiologiya və terminologiya baxımından da mühüm əhəmiyyət daşıyır. Onun əsərləri orta əsrlər Azərbaycanında işlənən təsəvvüfi anlayışların dil sistemində necə ifadə olunduğunu, ərəb və fars mənşəli istilahların türk ədəbi dilinə hansı yollarla daxil olduğunu və ümumişlək sözlərin terminoloji məna qazanması prosesini izləməyə imkan verir. Bakuvi yalnız nəzəri təsəvvüf məsələlərini izah edən müəllif olmayıb, eyni zamanda müridlərin mənəvi tərbiyəsini təşkil edən mürşid olduğuna görə onun terminologiyası həm nəzəri, həm də praktik səciyyə daşıyır.

Bakuvinin irsi türk, fars və ərəb dillərində qələmə alınmış mənzum və mənsur əsərlərdən ibarətdir. Mehmet Rıhtımın təsnifatında müəllifə aid 23 əsərin mövcud olduğu, bunların on səkkizinin fars, birinin türk, dördünün ərəb dilində yazıldığı göstərilir [1]. Sonrakı tədqiqatlarda əsərlərin sayı ilə bağlı qismən fərqli nəticələrə də rast gəlinir. Güngör Levent Menteşe 21 əsərdən, onların on altısının farsca, birinin türkcə, dördünün isə ərəbcə olmasından bəhs edir [2, s.32-56]. Bu fərq, əsasən, eyni risalənin müxtəlif əlyazma kataloqlarında ayrı-ayrı adlarla qeydə alınması, bəzi mətnlərin müstəqil əsər və ya külliyyatın tərkib hissəsi kimi qiymətləndirilməsi, eləcə də müəlliflik məsələsinin bütün nüsxələrdə eyni şəkildə göstərilməməsi ilə bağlıdır. Buna görə Bakuvinin terminoloji irsinin tədqiqində mətnlərin məzmununa, janrına və terminlərin həmin

mətnlərdə daşıdığı funksiyalara əsaslanmaq daha məqsədəuyğundur. Risalələrin nəşr olunmuş mətnləri də müqayisə materialına daxil edilmişdir [3; 4].

Tədqiqatda Bakuvinin əsərlərində işlənmiş terminlərin seçilməsi zamanı onların lüğəvi mənası ilə yanaşı, kontekst daxilində qazandığı xüsusi təsəvvüfi məzmun nəzərə alınmışdır. Ümumi dildə işlənən *yol, hal, mənzil, pərdə, sirr, nur, qaranlıq, yaxınlıq, ayrılıq, ölüm, dirilik, səfər, dəniz* və *güzgü* kimi sözlər təsəvvüfi mətn daxilində terminləşərək xüsusi konseptual məna ifadə edir. Məsələn, *yol* fiziki istiqaməti deyil, salikin mənəvi təkamül prosesini; *mənzil* coğrafi məkanı deyil, seyrü-sülukun müəyyən mərhələsini; *ölüm* bioloji sonluğu deyil, nəfsani mənliyin aradan qaldırılmasını; *dirilik* isə Haqqa bağlı yeni mənəvi mövcudluğu bildirir. Beləliklə, terminləşmə sözün ilkin mənasının tamamilə itməsi ilə deyil, həmin mənanın irfani məzmun əsasında yenidən şərh olunması ilə baş verir.

Bakuvinin təsəvvüf terminologiyasını leksik-semantik sahələr üzrə araşdırmaq terminlər arasındakı sinonimlik, antonimlik, mərhələ münasibəti, səbəb-nəticə əlaqəsi və məna iyerarxiyasını müəyyənləşdirməyə imkan verir. Bu sistemin mərkəzində *Haqq, qəlb, nəfs, salik, mərifət, zikr, eşq, fəna* və *bəqa* kimi yüksək işlənmə və anlayış yaratma imkanına malik terminlər dayanır. *Vird, müraqibə, təcrid, təfrid, suveyda, mühcətül-qəlb, seyr fillah* kimi daha məhdud mətn və mərhələ daxilində işlənən vahidlər isə sistemin xüsusi terminoloji qatını formalaşdırır. Birinci qrup müxtəlif əsərlərdə təkrarlanaraq Bakuvinin ümumi təsəvvüf modelini yaradır, ikinci qrup isə müəyyən risalənin mövzusundan və janrından asılı olaraq xüsusi məna daşıyır.

Bakuvinin əsərlərində fərqləndirilən **birinci semantik sahə** insanın Haqqa doğru mənəvi hərəkətini və bu hərəkətin mərhələli quruluşunu bildirən anlayışlardan ibarətdir. Bu sahənin əsas terminləri *təriqət, yol, seyr, süluk, seyrü-süluk, məqam, mənzil, hal, tövbə, inabə, niyyət* və *iradət* sözləridir. *Təriqət* Haqqa aparan mənəvi yolun ümumi adını, *seyrü-süluk* salikin bu yol üzərində hərəkətini və tədricən kamilləşməsini, *məqam* mənəvi səy nəticəsində qazanılan nisbətən sabit mərtəbəni, *hal* isə ilahi lütflə meydana çıxan və davamlı olmayan batini vəziyyəti bildirir. *Mənzil* termini məqamla yaxın mənalı olsa da, yol və səfər metaforikasını daha aydın saxlayır. *Tövbə, inabə, niyyət* və *iradət* mənəvi yolun başlanğıc mərhələlərini, *qürb, vüsal* və *qürbül-qürb* isə onun yüksək nəticələrini ifadə edir. Bu sahənin vahidləri mətn daxilində təsadüfi ardıcıllıq yaratmır; tövbə və niyyətdən başlayan proses iradət, mücahidə və müxtəlif məqamların keçilməsi ilə davam edir, Haqqa yaxınlıq və vüsal anlayışları ilə tamamlanır [5].

İkinci semantik sahə təriqət daxilində insanın mənəvi statusunu və rəhbərlik münasibətlərini ifadə edir. Bu sahəyə *talib, mürid, salik, sufi, dərviş, fəqir, arif, vəli, övliya, xəlifə, şeyx, mürşid, mürşidi-kamil, məşayix və pir terminləri* daxildir. *Talib* mənəvi həqiqəti arzulayan və onu axtaran şəxsi, *mürid* öz iradəsini mənəvi rəhbərin tərbiyəsinə bağlayan insanı, *salik* seyrü-süluk mərhələlərindən keçən yolçunu, *arif* isə mərifət qazanmış şəxsi bildirir. *Sufi, dərviş* və *fəqir* terminləri həmişə eyni inkişaf pilləsinin adları kimi çıxış etmir; onlar insanın mənəvi mənsubiyyətini, dünya nemətlərinə münasibətini və Haqq qarşısındakı ehtiyacını müxtəlif cəhətlərdən səciyyələndirir. Fars mənşəli pir mənəvi təcrübəsi və nüfuzu ilə tanınan rəhbəri bildirir; şeyx və mürşidlə yaxın mənalı olsa da, mənəvi ağsaqqallıq çalarını saxlayır. Xəlifə şeyxin mənəvi səlahiyyət verdiyi nümayəndə, *mürşid* və *şeyx* yol göstərən rəhbər, *mürşidi-kamil* isə irşad etmək səlahiyyətinə və mənəvi yetkinliyə malik ideal rəhbərdir. Bu terminlər Bakuvinin mətnlərində fərdi mənəvi təcrübənin mütləq şəkildə müəllim və mürid münasibəti daxilində həyata keçirildiyini göstərir.

Üçüncü semantik sahənin mərkəzində nəfsin tərbiyəsi dayanır. Buraya *nəfs, həva, şəhvət, mücahidə, cehd, riyazət, zöhd, vəra, aclıq, susuzluq, səbir, təqva, itaət, təslimiyyət, təvəkkül, ixlas, sidq* və *qənaət* terminləri daxildir. *Nəfs* tərbiyə və nəzarət tələb edən daxili qüvvə, *mücahidə* onun mənfi meyilləri ilə aparılan davamlı mübarizə, *riyazət* nəfsani istəklərin məhdudlaşdırılması, *zöhd* dünyaya bağlılığın zəiflədilməsi, *vəra* şübhəli əməllərdən çəkinmə, *səbir* isə mənəvi yolun çətinliklərinə dözümlü münasibətdir. *Təslimiyyət* və *təvəkkül* zahirən yaxın mənalı görünsə də, birinci termin iradənin ilahi hökmə tabe edilməsini, ikinci isə nəticəni Allaha həvalə etməyi bildirir. *İxlas* əməlin mənfəət və nümayişdən təmizlənməsi, *sidq* zahirlə batinin, dil ilə qəlbin

uyğunluğudur. Bu sahədə nəfs mənfi başlanğıc kimi təqdim olunsa da, tərbiyə olunaraq ruhun hakimiyyətinə verilməsi məqsəd güdülür.

Dördüncü semantik sahə qəlb və batini aləm anlayışlarından yaranır. Bu sahənin əsas vahidləri *qəlb, könül, sadr, fuad, sirr, ruh, batin, zahir, lübb, suveyda, nur, pərdə* və *təcəlli* terminləridir. Bakuvinin mətnlərində qəlb anatomik orqan olmayıb, ilahi həqiqətin dərk və təcəlli etdiyi mənəvi mərkəzdir. Türk mənşəli *könül* sözü onun yaxın semantik qarşılığı olsa da, poetik mətnlərdə emosional və obrazlı məzmunu daha güclü şəkildə ifadə edir. *Sadr* batini idrakın xarici qatını, *fuad* daha dərin duyğu və idrak mərkəzini, *lübb* mənəvi mahiyyətin saf özəyini, *sirr* isə adi şüur üçün qapalı olan ilahi idrak qatını bildirir. *Suveyda* qəlbin ən gizli nöqtəsi və ilahi sirlərin təcəlli məkanı kimi səciyyələndirilir. *Zahir* və *batin* terminlərinin qarşılaşdırılması insanın görünən davranışı ilə onun daxili mənəvi həqiqəti arasındakı əlaqəni göstərir. Bakuvi zahiri ibadəti inkar etmir, lakin onun batini məna ilə tamamlanmasını kamilliyin əsas şərti hesab edir.

Beşinci semantik sahəni bilik və mənəvi idrak terminləri təşkil edir. *Elm, bilik, mərifət, mərifətullah, yəqin, elmül-yəqin, eynül-yəqin, həqqül-yəqin, kəşf, mükaşifə, müşahidə, ilham, təfəkkür, fikir, hikmət, bəsirət, fərasət* və *təhqiq* bu sahənin başlıca vahidləridir. *Elm* təhsil, rəvayət və dəlil vasitəsilə əldə edilən bilik, *mərifət* isə mənəvi təcrübə və qəlbi idrak nəticəsində qazanılan tanıma kimi fərqləndirilir. *Yəqin* şübhədən uzaq biliyin ümumi adı olmaqla yanaşı, *elmül-yəqin, eynül-yəqin* və *həqqül-yəqin* birləşmələrində idrakın dərəcələrini ifadə edir. *Kəşf* gizli mənanın qəlbə açılması, *müşahidə* həqiqətin batini təcrübədə bilavasitə qavranılması, *ilham* isə biliyin qəlbə vasitəsiz şəkildə verilməsidir. Bakuvinin epistemoloji sistemində təfəkkür və zikr qəlbi hazırlayır, kəşf və ilham mənanı açır, müşahidə və mərifət isə həmin mənanın mənəvi həqiqətə çevrilməsini təmin edir.

Altıncı semantik sahəyə ümumi dildə emosional vəziyyət bildirən, lakin təsəvvüfi kontekstdə xüsusi irfani semantika qazanan *məhəbbət, eşq, şövq, iştiyaq, xof, rica, heybət, üns, riza, heyrət, dərd, hicran* və *vüsal* terminləri daxildir. *Məhəbbət* Haqqa yönələn sevginin ümumi adı, *eşq* insanın bütün varlığını əhatə edən yüksək və yandırıcı dərəcəsi, *şövq* və *iştiyaq* isə mənəvi qovuşmaya duyulan güclü arzudur. *Xof* Allah qarşısında qorxu və məsuliyyət hissini, *rica* ilahi mərhəmətə ümidi bildirir. Bu iki anlayış bir-birini inkar etmir, salikin mənəvi davranışını tarazlaşdırır. *Heybət* ilahi əzəmət qarşısındakı sarsıntı, *üns* Haqla mənəvi ülfət, *riza* ilahi hökmü könüllü qəbul etmə vəziyyətidir. *Dərd, hicran* və *vüsal* sözləri poetik mətnlərdə irfani hissin obrazlı ifadəsinə çevrilir; dərd Haqqa bağlılığın və eşqin əlaməti kimi dəyərləndirilir.

Yeddinci semantik sahə tövhid və ontoloji anlayışları birləşdirir. Buraya *tövhid, vəhdət, kəsrət, həqiqət, Haqq, zat, sifət, isim, təcəlli, fəna, bəqa, qürb, vüsal, cəmal* və *cəlal* terminləri daxildir. *Tövhid* Allahın birliyinin dini-etiqadi təsdiqi olmaqla yanaşı, irfani idrakın da əsasıdır. *Vəhdət* varlığın ilahi birlik əsasında qavranılması, *kəsrət* isə həmin birliyin müxtəlif zahiri surətlərdə təzahür etməsidir. *Haqq* həm Allahın adı, həm də mütləq həqiqəti bildirən termin kimi işlənir. *Fəna* salikin nəfsani mənlikdən və müstəqil varlıq iddiasından keçməsi, *bəqa* isə Haqqa bağlı mənəvi mövcudluq qazanmasıdır. *Cəmal* ilahi gözəllik, mərhəmət və lütf təcəllilərini, *cəlal* əzəmət və heybət təcəllilərini ifadə edir. Buna görə *fəna* və *bəqa* (yox olmaq – əbədiləşmək), *vəhdət* və *kəsrət* (təklik – çoxluq), *cəmal* və *cəlal* (gözəllik / lütf – əzəmət / qəzəb) sadə antonimlər deyil, bir-birini tamamlayan terminoloji mikrosistemlərdir.

Səkkizinci semantik sahə praktik təsəvvüf və mərasim terminlərini əhatə edir. *Zikr, vird, dua, ibadət, istiğfar, salavat, xəlvət, uzlət, müraqibə, təfəkkür, səma, namaz, oruc, zəkat, həcc, təharət, dəstəmaz* və *təlqin* bu sahənin əsas vahidləridir. *Zikr* Allahın adının təkrarı ilə yanaşı, şüurun davamlı surətdə Haqqa yönəldilməsini; *vird* müəyyən vaxtlarda və qaydada oxunan zikr, dua və ayələri; *təlqin* mürşidin müridə zikr üsulunu öyrətməsini bildirir. *Müraqibə* salikin qəlbini nəzarətdə saxlaması və özünü ilahi hüzurda hiss etməsidir. *Xəlvət* insanın müəyyən müddət xarici aləmdən uzaqlaşaraq zikr, dua, oruc və mənəvi təmizlənmə ilə məşğul olduğu xüsusi praktikadır. *Uzlət* isə daha geniş mənada insanlardan və dünyəvi məşğuliyyətlərdən uzaqlaşmadır. Bu sahədəki terminlərin əksəriyyəti İslamın ümumi dini leksikasına aid olsa da, Bakuvinin mətnlərində onların batini funksiyası ön plana çıxarılır.

Adları çəkilən sahələr bir-birindən təcrid olunmuş şəkildə mövcud deyildir. *Qəlb* termini nəfsin tərbiyəsi, mənəvi idrak, irfani hiss və praktik zikr sahələrini birləşdirən mərkəz rolunu oynayır. *Zikr* həm əməli fəaliyyət, həm idrak vasitəsi, həm də nəfsə qarşı mübarizə üsuludur. *Eşq* emosional hal olmaqla yanaşı, saliki fəna və vəhdət mərhələsinə aparan hərəkətverici qüvvədir. *Mürşid* rəhbərlik sahəsinə mənsub olsa da, qəlbin saflaşdırılması, zikrin təlqini və məqamların düzgün keçilməsi onun fəaliyyəti ilə bağlıdır. Bu qarşılıqlı əlaqə Bakuvinin terminologiyasının vahid konseptual modeldən ibarət olduğunu göstərir.

Bakuvinin türkcə qələmə aldığı "Şəfaül-əsrar" bu terminoloji sistemin ən geniş ifadə olunduğu əsərdir. Əsərdə elm, qəlb, ruh, nəfs, şəriətin əsasları, təriqət elmi, təriqət məqamları, həqiqət və şeyxliyin şərtləri geniş şəkildə izah olunur. Mətnin üç hissə, yeddi bölmə və yetmiş məqam əsasında qurulması terminlərin iyerarxik təqdimatına imkan verir. Burada *şəriət, təriqət* və *həqiqət* mənəvi inkişafın bir-birini tamamlayan səviyyələridir. Şəriət zahiri davranış və dini hökmün, təriqət mənəvi tərbiyə üsulunun, həqiqət isə həmin yolun batini nəticəsinin adıdır. "Şəfaül-əsrar"ın türkcə olması ərəb və fars mənşəli təsəvvüf istilahlarının Azərbaycan-türk ədəbi dilində izah edilməsinə, onların türk sözləri və canlı obrazlarla əlaqələndirilməsinə şərait yaratmışdır [6, s. 7].

"Şəfaül-əsrar"da terminlərin semantik əlaqəsi dəniz və gəmi metaforları vasitəsilə də qurulur. Bakuvi dünya, xalq, şeytan və nəfs dənizlərindən keçməyi mənəvi yolun ilkin şərti kimi təqdim edir. Dünya dənizində gəmi *zöhd*, sükan *qənaət*, lövbər *səbir* və *vəra* anlayışları ilə əlaqələndirilir. Şeytan dənizindən keçmək üçün *zikr, rica, xof* və *ixlas,* nəfs dənizini aşmaq üçün isə *aclıq, susuzluq, eşq, məhəbbət, şövq* və *səbir* əsas vasitələr sayılır. Burada konkret məişət və dənizçilik leksikası abstrakt təsəvvüf anlayışlarının izahına xidmət edir. Gəmi, sükan, yelkən, lövbər, külək və dalğa sözləri termin olmasa da, terminlər arasındakı funksional münasibəti əyaniləşdirən metaforik vasitələrə çevrilir [8, s. 15-17].

"Əsrarüt-talibin"də terminoloji sistem daha yığcam, lakin mövzu baxımından son dərəcə əhatəli şəkildə təqdim olunur. Ərəb dilində yazılmış və iyirmi dörd bölmədən ibarət olan əsərdə insanın əsl vətəninə qayıdışı, onun əsfəli-safilinə enməsi, ruhun bədəndəki vəziyyəti, elm növləri, tövbə, təlqin, təsəvvüf əhli, zikr və zikrin şərtləri, qəlb gözü, nur və zülmət pərdələri, səadət və şəqavət, sufi və fəqir anlayışları, təharət, namaz, zəkat, oruc və həccin şəriət və təriqət baxımından mənaları, vəcd, səfa, xəlvət, uzlət, vird, röya və təsəvvüf əhlinin zümrələri izah edilir. Əsərin mühüm terminoloji xüsusiyyəti dini ibadət adlarının iki semantik səviyyədə təqdim olunmasıdır. *Şəriət namazı* zahiri ibadəti, *təriqət namazı* qəlbin Haqq qarşısındakı daimi hüzurunu; *şəriət təharəti* bədənin təmizliyini, *mərifət təharəti* qəlbin mənəvi çirklərdən saflaşmasını bildirir. Belə paralel terminlər zahir və batin münasibətini sistemləşdirir [2, s. 44-45].

"Mənazilül-aşiqin" Bakuvinin mərhələ terminologiyasını ən ardıcıl şəkildə əks etdirən əsərlərindən biridir. Farsca məsnəvi formasında yazılmış əsərdə mənəvi təkamülün qırx mənzili təqdim olunur. *Niyyət, inabə, tövbə, iradət, mücahidə, müraqibə, səbir, zikr, fikir, nəfsə müxalifət, riza, müvafəqət, təslimiyyət, təvəkkül, zöhd, ibadət, vəra, ixlas, sidq, xof, rica, fəna, bəqa, eynül-yəqin, mərifət, vilayət, şövq, məhəbbət, vəhdət, qürb, üns, vüsal, kəşf, hüzur, təcrid, təfrid, inbisat, heyrət, təsəvvüf* və *qürbül-qürb* kimi istilahlar salikin mənəvi yolunun bütöv terminoloji xəritəsini yaradır. Bu əsərdə terminlərin mənası lüğəvi tərifdən çox, onların ardıcıllıqdakı yeri və digər anlayışlarla əlaqəsi əsasında açılır. Məsələn, şövq məhəbbəti hazırlayır, məhəbbət vəhdət təcrübəsinə, vəhdət qürb və vüsala, fəna isə bəqaya zəmin yaradır [8, s.23-30].

"Ətvarül-qəlb"də qəlb terminologiyası ayrıca mikrosistem şəklində işlənmişdir. Əsərdə qəlbin yeddi halı *sadr, qəlb, şəğaf, fuad, həbbətül-qəlb, suveyda* və *mühcətül-qəlb* terminləri ilə adlandırılır. *Sadr* İslam və Quran nuru ilə işıqlanan başlanğıc qat, *qəlb* iman və ağıl nurunun məkanı, *şəğaf* məhəbbət və eşqin təzahür etdiyi mərhələ, *fuad* ilham və kəşfin meydana çıxdığı dərin idrak mərkəzi kimi səciyyələndirilir. *Həbbətül-qəlb* mərifət və davamlı məhəbbət halını, *suveyda* ilahi sirlərin və elmi-əsmanın açıldığı gizli nöqtəni, *mühcətül-qəlb* isə üns, vüsal və zat təcəllisinin gerçəkləşdiyi yüksək mənəvi vəziyyəti bildirir. Eyni semantik sahə "Şərhi-məratibi-əsraril-qülub"da başqa təsnifatla davam etdirilir. Burada qəlb, eşq, mərifət, istiğna, tövhid, heyrət

və fəqrü-fəna salikin keçməli olduğu yeddi vadi kimi təqdim olunur. Beləliklə, bir əsərdə qəlbin daxili qatları, digərində isə qəlbin keçdiyi mənəvi vadilər terminləşdirilir [8, s. 17-21; 2, s. 37-38].

"Kəşfül-qülub"un terminoloji quruluşu *əql, qəlb, ruh* və *nəfs* anlayışlarının qarşılıqlı münasibətinə əsaslanır. Fars dilində yazılmış dörd bölməli risalədə bu anlayışların hər birinin mahiyyəti və mənəvi tərbiyə prosesindəki funksiyası izah olunur. Əql fərqləndirmə və dəlil qüvvəsi, qəlb ilahi nəzər və təcəlli məkanı, ruh insanı ucalığa yönəldən nurani başlanğıc, nəfs isə cismani meyillər və mənlik iddiası ilə əlaqələndirilir. Bununla belə, əql və qəlb qarşı-qarşıya qoyulmur. Əql iman nurunun dəlili və qəlbin doğru istiqamət almasının vasitəsi kimi qəbul edilir. Qəlb isə ruhla nəfsin hakimiyyət uğrunda mübarizə apardığı mənəvi məkan kimi təqdim olunur. Bu modeldə qəlbin saflaşması ruhun nəfs üzərində hakimiyyət qazanması deməkdir.

"Rumuzül-işarət"də Fatiha surəsinin *ihdinəs-siratəl-müstəqim* ifadəsi işari təfsir üsulu ilə izah edilir. Buna görə əsərin terminoloji nüvəsini *hidayət, sirat, istiqamət, yol, peyğəmbər, övliya, mərifət* və *kamal* anlayışları təşkil edir. Ayədəki doğru yol yalnız dini hökmə bağlılıq kimi deyil, mənəvi kamilliyin bitib-tükənməyən inkişafı kimi şərh olunur. "Şərhi-sualati-Gülşəni-əsrar"da isə *ruh və nəfs, qəlb və sirr, qəbz və bəst, qürb və bü'd, elmül-yəqin və eynül-yəqin* kimi qarşılıqlı termin cütləri əsas yer tutur. "Şərhi-əsmai-səmaniyyə"də *həyat, elm, səmi, bəsər, qüdrət, kəlam, iradə* və *bəqa* anlayışlarının izahı ilahi ad və sifətlərə dair ayrıca terminoloji sahə yaradır. Bu risalədə təsəvvüfi terminologiya kəlam elminin anlayışları ilə yaxınlaşır, lakin onlar salikin mənəvi idrakı və ilahi sifətlərin təcəllisi baxımından şərh olunur [2, s. 37-39].

"Əsrarül-vüzu vəs-səlat", digər adı ilə "Ma la büddə batiniyyə" zahiri ibadətlə batini təmizlənmənin əlaqəsini terminoloji sistem şəklində ifadə edir. Əsərdə *niyyət, təharət, nəcasət, dəstəmaz, namaz, qəlb, dua, salavat, təqva* və *fəqr əhli* kimi anlayışlar işlənir. Dəstəmaz bədən üzvlərinin su ilə yuyulması olmaqla yanaşı, həmin üzvlərlə bağlı mənəvi nöqsanlardan təmizlənmənin rəmzi kimi təqdim edilir. Namazın cismani və ruhani istiqamətlərdə şərh olunması ibadətin hərəkət, niyyət, hüzur və mənəvi yaxınlıq komponentlərini fərqləndirir. "Məkarimül-əxlaq"da da təharət və nəcasət anlayışları yalnız fiziki təmizlik bildirmir, əxlaqi və batini saflaşmanın adlarına çevrilir. Bakuvinin bu yanaşması sonrakı Xəlvəti müəlliflərinin dəstəmazın batini mənalarına həsr olunmuş əsərlərinə təsir göstərmişdir [9, s. 1-16].

"Virdü-Səttar"da terminlər nəzəri izah obyekti olmaqdan çıxaraq bilavasitə mənəvi fəaliyyətin dil vahidlərinə çevrilir. Ərəb dilində tərtib edilmiş əsərin birinci hissəsində dua və istiğfar ifadələri, ikinci hissəsində Allahın ad və sifətləri, üçüncü hissəsində isə Peyğəmbərin vəsfləri, dörd xəlifə, əhli-beyt, Həzrət Həmzə və Həzrət Abbasla bağlı mədh və salavatlar yer alır. Burada *dua, zikr, istiğfar, salavat, rəhmət, məğfirət, hifz, nur, təvəkkül* və ilahi adlar performativ səciyyə daşıyır: termin müəyyən anlayışı izah etməklə kifayətlənmir, onun təkrarı dini-mənəvi əməlin özünü təşkil edir. Menteşeyə görə, "Virdü-Səttar"ın müxtəlif Xəlvətilik qollarında oxunması Bakuvinin terminologiyasının təriqətin kollektiv dini yaddaşında yaşamasını təmin etmişdir [2, s. 44].

"Bəyanül-elm"də *elm, mərifət, zikr, alim, arif, elmi-lədünni* və *hikmət* anlayışları ön plana çıxır. Əsərdə hər şeyin başlanğıcının Allahı tanımaq olduğu və belə idrakın davamlı zikrlə möhkəmləndiyi bildirilir. Bununla elm insanı Haqqa yönəldən mənəvi fəaliyyət kimi təqdim olunur. "Əcayibül-qülub"da əvvəlki sufi müəlliflərdən qəlbin halları, məqamlar və irfani ifadələr toplanaraq terminoloji varislik yaradılır. "Qəzəliyyat"da və "Qisseyi-Mənsur"da isə *eşq, dərd, dərman, sirr, Haqq, fəna, vəsl, hicran, canan* və *şəhadət* kimi terminlər poetik obrazlarla birləşir. Nəsr əsərlərində anlayışın sərhədləri izah və təsnifatla müəyyənləşdirildiyi halda, poeziyada termin çoxmənalılıq, rəmz və emosional assosiasiya vasitəsilə açılır [3; 4].

Bakuvinin terminologiyasının mühüm xüsusiyyətlərindən biri ərəb, fars və türk dil ünsürlərinin vahid sistemdə birləşməsidir. Ərəb mənşəli sözlər dini və nəzəri anlayışların əsas adlarını təşkil edir: *tövhid, mərifət, müraqibə, təcəlli, fəna, bəqa, ixlas, təvəkkül, vüsal*. Fars dili bu terminlərin poetik və metaforik ifadəsində, izafət birləşmələrinin qurulmasında mühüm rol oynayır. Türk mənşəli *yol, könül, bilik, sevgi, ayrılıq, yaxınlıq* kimi sözlər isə anlayışların yerli oxucu üçün daha aydın və emosional şəkildə ifadə olunmasını təmin edir. *Yol–təriqət, könül–qəlb, bilik–elm, sevgi–məhəbbət–eşq* sıralarında tam sinonimlik yoxdur. Türk mənşəli qarşılıqlar ümumi

və obrazlı məzmunu, ərəb mənşəli istilahlar isə anlayışın nəzəri və kateqorial sərhədlərini daha aydın ifadə edir.

Terminlərin bir qismi ərəb tərkibi, fars izafəti və bağlayıcılı birləşmə şəklində qurulur: *seyrü-süluk, elmül-yəqin, eynül-yəqin, həqqül-yəqin, mərifətullah, məhəbbətullah, mürşidi-kamil, əhli-fəqr, əhli-təsəvvüf, aləmi-təcrid, qürbül-qürb*. Belə birləşmələr anlayışın əsas və fərqləndirici əlamətlərini bir termin daxilində ifadə edir. *Elmül-yəqin* biliyə əsaslanan əminliyi, *eynül-yəqin* mənəvi müşahidə ilə qazanılan əminliyi, *mərifətullah* Allahın batini təcrübə vasitəsilə tanınmasını bildirir. Terminoloji birləşmələr təsəvvüfi idrakın incə məna fərqlərini qoruyur və ümumişlək sözlərlə ifadəsi çətin olan anlayışları dəqiqləşdirir. Pir sözünün rəhbər şəxs adı kimi terminləşməsi də ümumi yaş bildirən məna ilə təriqət daxilində qazandığı xüsusi funksiyanın qarşılaşmasına nümunədir.

Bakuvinin əsərlərində antonim və korrelyativ münasibətlər də sistemyaradıcı xüsusiyyət daşıyır. *Zahir–batin, ruh–nəfs, nur–zülmət, elm–cəhalət, vəhdət–kəsrət, fəna–bəqa, qəbz–bəst, xof–rica, cəmal–cəlal, qürb–bü'd, vüsal–hicran* cütləri təsəvvüfi təcrübənin müxtəlif tərəflərini ifadə edir. Bu vahidlərin hər biri qarşı tərəfin iştirakı ilə daha dəqiq semantik sərhəd qazanır. Məsələn, *batin* zahirin inkarı deyil, onun mənəvi məzmunu; *bəqa* fənanın əksi deyil, fənadan sonra meydana çıxan yeni vəziyyət; *rica* xofun aradan qalxması deyil, ilahi mərhəmət ümidinin qorxu ilə tarazlaşmasıdır. Buna görə həmin münasibətlərin adi lüğəvi antonimlikdən daha mürəkkəb olduğu görünür.

Quran ayələri və hədislər Bakuvinin terminoloji sisteminin əsas mənbələrindəndir. *Tövbə, zikr, təqva, səbir, ixlas, hidayət, sirat, nur, zülmət, qəlb, nəfs* və *ruh* kimi sözlər Qurandakı mənalarını qorumaqla yanaşı, sufi ənənəsində yaranmış şərhlər vasitəsilə əlavə semantik qat qazanır. Bakuvi ayə və hədisləri yalnız fikrin sübutu kimi təqdim etmir; onların leksik vahidlərini məqam, hal və mənəvi təcrübə adlarına çevirir. "Rumuzül-işarət"də *sirati-müstəqim* anlayışının seyrü-süluk yolu kimi şərhi, "Əsrarül-vüzu"da təharətin qəlbin saflaşması ilə əlaqələndirilməsi və "Şəfaül-əsrar"da zikrin şeytan və nəfsə qarşı mənəvi vasitə kimi təqdim olunması bu semantik genişlənmənin nümunələridir.

Bakuvinin nəsr, məsnəvi, qəzəl, işari təfsir və vird janrlarında yazması terminlərin funksional imkanlarını genişləndirmişdir. Didaktik nəsrdə termin izah edilir, əlamətləri göstərilir və Quran-hədis nümunələri ilə əsaslandırılır. Məsnəvilərdə terminlər mərhələlər, vadilər və mənzillər şəklində sıralanır. Qəzəllərdə eyni anlayışlar eşq, dərd, şərab, canan, hicran və vüsal rəmzləri ilə poetikləşdirilir. Vird mətnində isə sözün deyilməsi mənəvi təcrübənin icrasına çevrilir. Beləliklə, Bakuvinin terminologiyasında definisiya, təsnifat, simvol və dini əməl funksiyaları bir-birini tamamlayır.

Nəticə: Seyid Yəhya Şirvani Bakuvinin əsərlərində təsəvvüf terminləri bir-birindən təcrid olunmuş leksik vahidlər olmayıb, ortaq konseptual nüvəyə malik qarşılıqlı əlaqəli sistemdir. Bu sistemdə mənəvi yol və seyrü-süluk, müridlik və rəhbərlik, nəfsin tərbiyəsi, qəlb və batini aləm, mənəvi idrak, irfani hiss, tövhid və ontoloji anlayışlar, praktik təsəvvüf olmaqla səkkiz əsas semantik sahə fərqləndirilir. Sahələr arasındakı əlaqənin əsas mərkəzlərini *qəlb, nəfs, salik, zikr, mərifət, eşq, fəna* və *bəqa* terminləri təşkil edir.

"Şəfaül-əsrar" terminlərin türkcə geniş izahını və sistemli təqdimatını, "Əsrarüt-talibin" şəriət və təriqət anlayışlarının paralel təsnifatını, "Mənazilül-aşiqin" mərhələ terminologiyasını, "Ətvarül-qəlb" qəlbin daxili qatlarını, "Kəşfül-qülub" əql, qəlb, ruh və nəfs münasibətlərini, "Şərhi-məratibi-əsraril-qülub" mənəvi vadilər sistemini, "Əsrarül-vüzu vəs-səlat" ibadətlərin zahiri və batini mənalarını, "Virdü-Səttar" isə terminlərin mərasim və performativ funksiyasını əks etdirir. "Rumuzül-işarət", "Şərhi-sualati-Gülşəni-əsrar", "Şərhi-əsmai-səmaniyyə", "Bəyanül-elm", "Qəzəliyyat" və digər əsərlər həmin sistemi təfsir, kəlam, mənəvi idrak və poetik simvolika istiqamətlərində zənginləşdirir.

Araşdırma göstərir ki, Bakuvinin terminologiyasının əsas nüvəsi ərəb mənşəli dini-irfani istilahlardan yaransa da, fars poetik ifadə vasitələri və türk mənşəli sözlər bu sistemi Azərbaycan ədəbi-mədəni mühitinə uyğunlaşdırmışdır. Ümumişlək sözlərin terminləşməsi, yaxınmənalı vahidlər arasındakı incə fərqlər, qarşılıqlı anlayış cütləri və mərhələ münasibətləri Bakuvinin

dilində inkişaf etmiş təsəvvüf terminologiyasının mövcudluğunu sübut edir. Bu irs Azərbaycan dilinin tarixi terminologiyasının, XV əsr elmi nəsrinin, eləcə də Şirvan ədəbi-mədəni mühitində çoxdilliliyin öyrənilməsi üçün mühüm mənbədir. Məqalənin elmi yeniliyi müxtəlif janrlı əsərlərdəki təsəvvüf terminlərinin semantik sahələr, məna münasibətləri və mətn funksiyaları üzrə vahid modeldə təhlilidir. Nəticələr tarixi leksikologiya və terminologiya tədqiqatlarında, eləcə də təsəvvüf istilahları üzrə izahlı lüğətlərin tərtibində tətbiq oluna bilər.

Ədəbiyyat siyahısı

1. Rıhtım, M. (2005). Seyyid Yahyâ-i Baküvî ve Halvetîlik. Bakı: Qismət.
2. Menteşe, G. L. (2020). "Seyyid Yahyâ-yi Şirvânî ve Eserleri Üzerine Bir Değerlendirme". Doğu Araştırmaları, 21, s. 32–56.
3. Şirvani, S. Y. (2014). Risalələr. I cild. Nəşrə hazırlayan M. Rıhtım. Bakı: Bilik.
4. Şirvani, S. Y. (2014). Risalələr. II cild. Nəşrə hazırlayan M. Rıhtım. Bakı: Bilik.
5. Kurşun, İ. M. (2023). "Seyyid Yahyâ-yı Şirvânî'nin Seyr u Sülûk Anlayışı". Uluslararası Anadolu Sosyal Bilimler Dergisi, 7(1), s. 14–28.
6. Şirvani, S. Y. (2011). Şifâü'l-Esrâr: Sufi Yolunun Sırları. Hazırlayan M. Rıhtım. İstanbul: Sufi Kitap.
7. Bayram, A. (2018). Seyyid Yahyâ Şirvânî'nin Şifâü'l-Esrâr'ı Üzerinde Tarihî Dil Bilgisi Çalışması. Doktorluq dissertasiyası. Sivas Cumhuriyet Universiteti.
8. Özköse, K. (2014). "Seyyid Yahyâ Şirvânî'nin Benimsediği Seyr u Sülûk Esasları". Gaziosmanpaşa Üniversitesi İlahiyat Fakültesi Dergisi, 2(2), s. 11–38.
9. Seyitova, F. (2025). "Esrârü'l-Vuḍû Üçgeni: Seyyid Yahya Eş-Şirvânî, Cemâl El-Halvetî ve İbrâhim Gülşenî". Uluslararası Türk Dünyası Araştırmaları Dergisi, 8(1), s. 1–16. https://doi.org/10.59182/tudad.1546934.

Khadija Heydarova

The lexical-semantic system of sufi terms in the works of Sayyid Yahya Shirvani Bakuvi

Summary

The article examines the Sufi terms used in the works of Sayyid Yahya Shirvani Bakuvi, a prominent representative of fifteenth-century Azerbaijani philosophical, scholarly and mystical thought, as an integrated lexical-semantic system. The main purpose of the study is to interpret these terms not as an isolated lexical inventory but as conceptually interconnected semantic fields. The corpus of the research mainly includes *Shifa al-Asrar*, *Asrar al-Talibin*, *Manazil al-Ashiqin*, *Kashf al-Qulub*, *Atwar al-Qalb*, *Sharh Maratib Asrar al-Qulub*, *Rumuz al-Isharat*, *Asrar al-Wudu wa al-Salat*, *Sharh al-Asma al-Thamaniyya*, *Wird al-Sattar*, *Bayan al-Ilm* and the author's ghazals. Using descriptive, contextual and comparative-semantic methods, the terms are classified into eight fields: the spiritual path and mystical journey, discipleship and spiritual guidance, purification of the lower self, the heart and the inner world, spiritual knowledge, mystical emotions, tawhid and ontological concepts, and practical Sufism. The study demonstrates that although Arabic terms constitute the conceptual core of Bakuvi's terminology, Persian genitive constructions and metaphorical expressions, together with Turkic words such as *yol* "path", *könül* "heart", *bilik* "knowledge" and *sevgi* "love", contribute to the adaptation of this terminology to the local literary and linguistic environment. A comparison of Bakuvi's prose, poetic, exegetical and liturgical works reveals that Sufi terms acquire different didactic, symbolic, poetic and performative functions depending on the genre.

Keywords: *Sayyid Yahya Shirvani Bakuvi, Sufi terminology, lexical-semantic field, Shifa al-Asrar, Khalwatiyya, spiritual journey, heart.*

Хадиджа Гейдарова

Лексико-семантическая система суфийских терминов в произведениях Сейида Яхьи Ширвани Бакуви

Резюме

В статье исследуется лексико-семантическая система суфийских терминов в произведениях Сейида Яхьи Ширвани Бакуви, представителя азербайджанской научной, философской и мистической мысли XV века. Цель исследования — определить взаимосвязанные понятийные поля и семантические отношения терминов. Материалом послужили прежде всего «Шифауль-асрар», «Асрар ат-талибин», «Маназиль аль-ашикин», «Кашф аль-кулуб», «Атвар аль-кальб», «Шарх маратиб асрар аль-кулуб», «Румуз аль-ишарат», «Асрар аль-вуду ва-с-салат», «Шарх аль-асма ас-саманийя», «Вирд ас-Саттар», «Баян аль-ильм» и газели автора. С помощью описательного, контекстуального и сравнительно-семантического методов термины распределены по восьми областям: духовный путь и мистическое странствие, ученичество и духовное наставничество, воспитание нафса, сердце и внутренний мир, духовное познание, мистические чувства, единобожие и онтологические представления, практический суфизм. Установлено, что арабские термины образуют понятийное ядро системы, тогда как персидские изафетные конструкции и метафорические выражения, а также тюркские слова yol «путь», könül «сердце», bilik «знание», sevgi «любовь» участвуют в её освоении в местной литературной и языковой среде. Сопоставление произведений разных жанров выявляет различие дидактических, обрядовых, поэтических и символических функций терминов.

Ключевые слова: *Сейид Яхья Ширвани Бакуви, суфийская терминология, лексико-семантическое поле, Шифауль-асрар, халватийя, духовный путь, сердце.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor İlham Tahirov***
fil.e.d.,dos.Nərmin Əliyeva